**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi**
**İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu**

# 2020-ci il üzrə
# HESABAT

**Dekabr, 2020**

**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi**

**İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun**

**2020-ci il üzrə**

**HESABATI**

## 1. Ümumi məlumat (Fəaliyyət və onun istiqamətləri barədə)

Əlli beş ildən artıq tarixi olan (1964) Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu Sovet dövründən indiyə qədər sosial-iqtisadi inkişafın əsas sahələrini əhatə edən yüzlərlə elmi tədqiqat işləri aparmış və yüksək ixtisaslı kadrlar hazırlamışdır. Bununla institutun fəaliyyət istiqamətləti əsasən aşağıdakılar olmuşdur:

- elmi-tədqiqat və analitik təhlil işləri
- kadr hazırlığı *(ali təhsilin doktorantura pilləsi üzrə təhsil)*
- xarici tərəfdaşlarla və beynəlxalq təşkilatlarla iş
- elmi nəşrlər və ictimai məlumatlandırma
- maliyyə-təsərrüfat fəaliyyəti

Hazırda İnstitut Dövlət proqramlarının, Strateji Yol Xəritələrinin, digər mühüm tapşırıqların icrası çərçivəsində nazirlik daxilində və hökumət səviyyəsində **proqnoz modellərinin işlənilməsi, innovasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, diaqnostik təhlillərin aparılması, texniki-iqtisadi əsaslandırılmaların aparılması** və bu kimi digər istiqamətlərdə yeni iqtisadi şəraitin tələblərinə cavab verən araşdırmalara cəlb olunur.

## 2. İşçi sayı

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda 9 şöbə fəaliyyət göstərir. Onlardan 6-si elmi, 3-ü köməkçi şöbədir. İşçilərin sayı **79 nəfərdən** ibarətdir. Onlardan: 54-ü elmi şöbədə (27-i texniki işçi), 23-ü isə köməkçi şöbədə fəaliyyət göstərirlər. İnstitutun orta yaş həddi: 40 yaş, **elmi işçilər - 34%.**

## 3. İİETİ – Fəaliyyət nəticələri

- Makroiqtisadi, sahələrarası əlaqələr, xarici ticarət, investisiya, qiymət-tarif, kiçik və orta sahibkarlıq, davamlı inkişaf məsələləri üzrə təhlil, qiymətləndirmə və proqnozlaşdırma üçün analitik alətlərin yaradılması;
- İnvestisiya subyektlərinin (sənaye parkı və klasterləri, sənaye məhəllələri və s.) fəaliyyətinin qiymətləndirilməsi üçün əlaqələndirilməsinin təşkili;
- İqtisadiyyatın dövlət idarəetməsi və tənzimlənməsi inteqrasiya olunmuş məlumatlar bazalarının yaradılması;
- Kadr hazırlığı üçün müasir təlim – tədris modullarının hazırlanması.

Hazırda İnstitut Dövlət proqramlarının, Strateji Yol Xəritələrinin, digər mühüm tapşırıqların icrası çərçivəsində nazirlik daxilində və hökumət səviyyəsində **proqnoz modellərinin işlənilməsi, innovasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, diaqnostik təhlillərin aparılması, texniki-iqtisadi əsaslandırılmaların aparılması** və bu kimi digər istiqamətlərdə yeni iqtisadi şəraitin tələblərinə cavab verən araşdırmalara cəlb olunur.

## 4. Elmi-tədqiqat və analitik təhlil işləri

### Tədqiqatların xarakteri

2020-ci il ərzində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda iş planı üzrə 9, xüsusi tapşırıqlar əsasında 10-dan çox iş görülmüşdür*.* Görülmüş işlər Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə, Dövlət Proqramlarında nəzərdə tutulmuş müvafiq tapşırıqlar, ölkə əhəmiyyətli məsələləri, yeni iqtisadi şəraitin tələblərinə cavab verən aktual mövzular, eləcə də əlavə tapşırıqlar istiqamətində yerinə yetirilmişdir.

İİETİ-də tətbiqi xarakterli tədqiqatlar aparılır. Tədqiqat mövzularının formalaşdırılması əsasən İqtisadiyyat Nazirliyinin və digər dövlət qurumları tərəfindən qoyulan problemlər üzərindən aparılır.

## Tədqiqatların istiqamətləri və problemlər

### Tədqiqatların istiqamətləri

- Təsir analizləri üçün analitik alətin hazırlanması
- Proqnoz modellərinin işlənilməsi
- İnsan kapitalının inkişafının tədqiqi
- Kənd təsərrüfatının inkişafının tədqiqi
- Digər iqtisadi sektorların inkişafı
- İnnovativ inkişafın və sənayenin tədqiqi
- Dayanıqlı İnkişaf Məqsədləri
- Sahibkarlığın inkişafı
- Dövlət-özəl əməkdaşlığın genişləndirilməsi
- Regionların inkişafının tədqiqi
- Strateji Yol Xəritələri**,** Dövlət Proqramları və Nazirliyin müvafiq əmr və tapşırıqlarının icrası

## Elmi-tədqiqat və analitik təhlil işlərinə dair qısa xülasə

### İİETİ iş planı üzrə aparılan tədqiqat işləri

- **"Proqnozlaşdırma modellərinin metodologiyasının hazırlanması".** Tədqiqat işinin yerinə yetirilməsi üzrə ilk olaraq dünya təcrübəsində və Azərbaycanda istifadə olunan əsas makroiqtisadi modellər təhlil edilərək sistemləşdirilmişdir. Eyni zamanda, göstəricilərin qiymətləndirmə üsulları, modellərin xüsusiyyətlərə görə təsnifləşdirilməsi aparılmışdır. Mövcud modellər güclü, zəif tərəfləri, eləcə də xüsusiyyətləri baxımından təhlil edilmiş, aparılan elmi araşdırmalar və təhlillərin nəticəsi olaraq praktik yanaşma metodologiyasını, üsullarını və əsas iqtisadi balansların təmin olunması prinsiplərini özündə ehtiva edən proqnozlaşdırma metodologiyası işlənib hazırlanmışdır. Bu metodologiya əsasında Excel proqramında ilkin proqnozlar işlənmişdir. Belə ki, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda hazırlanmış proqnoz modeli vasitəsilə 1995-2017-ci illəri əhatə edən əsas makroiqtisadi göstəricilərin faktiki zaman sıraları nəzərə alınmaqla zaman sıralarının sadə ekrtapolyasiyaları ilə tarazlı iqtisadi balanslarla 2018-2030-cu illəri əhatə edən əsas makroiqtisadi göstəricilərin uzunmüddətli proqnozunun verilməsinə imkan verir. Eyni zamanda modeldə əsas makroiqtisadi göstəricilərin faktiki zaman sıralarını əlavə etmək, yeniləmək və əsas makroiqtisadi göstəricilərin

uzunmüddətli proqnozunun zaman sıralarını artırmaq mümkündür. Bu baxımdan təqdim edilən model bütün iqtisadi situasiyalarda proqnozlaşdırma zamanı qarşıya çıxan problemləri həll etməyə yönəli hər hansı iqtisadi mülahizələri nəzərə almağa imkan verir. Əsas ekzogen göstəricilərin ayrıca olaraq proqnozlaşdırılması və alınan nəticələr əsasında əsas makroiqtisadi göstəricilərin balanslaşdırılmaqla proqnozlaşdırılması təklif edilən metodologiyanın əsasında dayanır. Belə yanaşma Covid-19 pandemiyası dövründə qısa zaman ərzində real sektorda hər bir sahənin fəaliyyət imkanlarını nəzərə almaqla digər sektorlara aid iqtisadi göstəricilərin proqnozlaşdırılmasına imkan verir. Praktik yanaşma metodologiyası sadədir və proqnozlaşdırma prosesinin bütün mərhələlərində proqnozlaşdırmaya cəlb ediləcək kadrlar tərəfindən tam anlaşılan və başa düşüləndir. Metodologiya uzun zaman sıralarının işlənməsinə əsaslanan mürəkkəb iqtisadi riyazi tənliklər sistemini və mürəkkəb meyarlara cavab verən çoxsaylı ekonometrik tənliklərin qurulmasını nəzərdə tutmur, əksinə qısa zaman sıralarının sadə ekrtapolyasiyaları ilə tarazlı iqtisadi balanslarla proqnozlar verməyə imkan verir. Praktik proqnozlaşdırma metodologiyasının məlumat bazası Milli Hesablar Sistemi, Tədiyyə balansı, Mərkəzi Bank və Dövlət büdcəsinin göstəricilərinə əsaslanır.

- **“İqtisadi monitorinq və qısa müddətli proqnoz modelləri üçün məlumat bazasının yenilənməsi”.** Əvvəlki illərdə İnstitutda Azərbaycanın makroekonometrik modeli kompakt formada işlənmişdir. Bu modelin işlənməsi zamanı dünya təcrübəsinə, nəzəri-metodoloji əsaslara söykənən, eləcə də beynəlxalq ekspertlər tərəfindən qəbul edilmiş məlumat bazası hazırlanmışdır. Məqsəd bu məlumat bazasını ümumilikdə qiymətləndirmələrdə istifadə etməkdir. Ona görə də məlumat bazası daim yenilənməlidr. Hazırda bu məlumatlar bazasının ən son rəsmi statistik məlumatlar əsasında yenilənməsi həyata keçirilir. Müəyyən bloklarda işin gözləmə mövqeyində olması, hazırda Dövlət Statistika Komitəsində həmin göstəricilər üzrə yenidən dəqiqləşdirmələrin aparılması səbəbindəndir. Qeyd edək ki, bu məlumatların toplanması, emalı və məlumat bazasında işlənməsi tam olaraq DSK təlimatlarına uyğun olmaqla birgə razılaşdırma əsasında həyata keçirilir.
- **“2020-2022-ci illər üçün sektorlar üzrə əmək məhsuldarlığının artırılmasına dair” Dövlət Proqramı layihəsinin təkmilləşdirilməsi** işi “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının “3.2.4. Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşdırılması” tapşırığın icrası ilə əlaqədar olaraq yerinə yetirilmişdir. “2021-2023-cü illər üçün sektorlar üzrə əmək

məhsuldarlığının artırılmasına dair Dövlət Proqramı" layihəsi hazırlanmışdır. Layihədə ölkədə sektorlar üzrə əmək məhsuldarlığı ilə bağlı siyasət hazırlama prosesini sürətləndirmək, təhsil - biznes əməkdaşlığının genişləndirilməsilə əmək məhsuldarlığını artırmaq, biznes və investisiya mühitinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlərlə kapital səmərəliliyi dərəcəsini artırmaq, iqtisadiyyatda qənaətli istehsala nail olma prosesində innovativ və texnoloji yenilikləri yaymaq, kiçik və orta biznes subyektləri olmaqla firmaların texnoloji təchizat, təşkilatlanma, məhsuldarlıq və tədqiqat-işləmə qabiliyyətlərini yüksəltməklə bağlı tədbirlər nəzərdə tutulmuşdur. Hazırda layihə razılaşdırılmaq üçün aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir.

- **"Regional innovasiya indeksinin hesablanması üzrə beynəlxalq metodologiyaların araşdırılması və onların əsasında Azərbaycan üçün metodologiyanın hazırlanması"** tədqiqat işində regional innovasiya fəaliyyətinin qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları işlənilmiş, regionun innovativ inkişaf səviyyəsini qiymətləndirilməsi üzrə beynəlxalq təcrübədə istifadə olunan yanaşmalar müqaisəli təhlil edilmişdir. Tədqiqat işində Avropa Birliyinin 11 ölkəsi və Cənubi Qafqaz regionuna daxil olan ölkələrin "Global İnnovation İndex (GİI)-2019" indeksləri əsasında innovasiya sahəsində rəqabət üstünlüklərini əks etdirən göstəricilər, həmçinin ölkələrin innovasiya sisteminin güclü və zəif tərəfləri müəyyən edilmişdir. Aparılan elmi araşdırmalar və təhlillərin nəticəsi olaraq  Azərbaycana uyğun metodologiya hazırlanmışdır.
- **"İnnovasiyayönümlü klasterlərin Azərbaycan üçün uyğun modelinin müəyyən edilməsi"** təqdiqat işi əvvəlcədən hazırlanmış texniki tapşırığa uyğun aparılmışdır. İlkin mərhələdə texniki tapşırığın birinci bəndinə uyğun olaraq "İnnovasiya tipli iqtisadiyyatın təşəkkülü şəraitində effektiv klaster modellərinin təhlili" (Xarici tədqiqatçıların klaster modellərinin təhlili - Beynəlxalq təcrübə) aparılmışdır. Buna uyğun olaraq xarici tədqiqatçılardan Ö.Sölvell, E.Feserin, K.Ketels və C.Lindkvist, D.L.Napolski, Ö.Sölvell, K.Ketels – Qıf modelləri öyrənilmiş və təhlil edilmişdir. Klaster modellərinin təhlili nəticəsində klasterin formalaşmasına və inkişafına təsir göstərə biləcək əsas struktur elementlərini və onların qarşılıqlı əlaqələri müəyyən edilmişdir. Azərbaycanda regionların iqtisadi inkişaf məqsədləri üçün klaster inkişafının effektivliyinə təsir edən amillər araşdırılmış, klasterin əsas iştirakçıları müəssisə-elm-dövlət orqanları arasında klasterdaxili əlaqələrin formalaşmasına və intensivləşdirilməsinə, habelə klasterlərin institusionallaşdırılması proseslərinin əhəmiyyəti vurğulanmış və müvafiq təkliflər hazırlanmışdır. Bununla bağlı arayış hazırlanmışdır.

- **Qənaətli istehsal metodları ilə bağlı məlumatlandırma tədbirlərinin görülməsi (analitik və təşviq nəşrlərinin çap edilməsi) ("Azərbaycan Respublikasının ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" üzrə təfsilatlı tədbirlər planının 1.1.1 bəndinin 6-cı altbəndi)** Tapşırığın icrası ilə bağlı ötən il hazırlanmış və çap olunmuş maarifləndirici məlumatları özündə əks etdirən kitabçaların davamı olaraq "Qənaətli istehsal üsulları: Poka-Yoke" və "Qənaətli istehsal üsulları: İstehsalın "dartıcı" sistemi ("PULL" production)" adlı kitabçalar hazırlanmışdır. Kitabçalarda qənaətli istehsal metodlarının xərcləri və istehsal müddətini azaldan və proseslərdəki tullantıları aradan qaldıraraq keyfiyyətin artırılması məsələləri əks etdirilmişdir.
- **"Kiçik və orta sahibkarlığın müflisləşmə problemlərinin müəyyən edilməsi və təkliflərin işlənməsi"** Tədqiqat işində ölkəmizdə və dünyada kiçik və orta sahibkarlıqda mövcud vəziyyət öyrənilmişdir. Beynəlxalq təcrübə (Türkiyə və Rusiya) əsasında Kiçik və orta sahibkarlığın üstünlükləri və çatışmamazlıqları, müflisləşmə problemləri və müflisləşmənin səbəbləri müəyyən edilmiş, KOS-ların müflisləşmə riskini azaltmağın həll yolları araşdırılmışdır. Bu həll yollarına aktivlərin qaytarılması, ümumi borc nisbəti, iflas olma ehtimalını qiymətləndirmək üçün ekonometrik modellərdən istifadə və s. daxildir. İşdə KOS subyektlərinin müflisləşmə məsələlərinə maliyyə və hüquqi cəhətdən yanaşmalar, müflisləşmə probleminə daxili və xarici mühit amillərinin təsirləri müəyyən edilmişdir. Həmçinin, ölkənin kredit bank sisteminin KOS-ların müflisləşmə probleminə təsiri araşdırılmışdır. Aparılan araşdırma və təhlillər nəticəsində böhran vəziyyətinin mümkün səbəblərinin kompleks diaqnostikası aparılmışdır. KOS-ların müflisləşməsi səbəblərinin aradan qaldırılması istiqamətində təklif və tövsiyyələr işlənmişdir.
- **"Azərbaycan Respublikasının ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 1.1.1-ci yarımbəndinin 6. Qənaətli istehsal metodları ilə bağlı məlumatlandırma tədbirlərinin görülməsi (analitik və təşviq nəşrlərinin çap edilməsi)** altbəndinin icrası istiqamətində qənaətli istehsal üsulu "Qənaətli istehsal üsulları: tam zamanında istehsal (Just-In-Tıme)", "Qənaətli istehsal üsulu "Altı Sigma" - maarifləndirici məlumatları özündə əks etdirən kitabçalar hazırlanmışdır. Kitabçalarda Qənaətli istehsalın mahiyyəti və istehsalda tətbiqi xüsusiyyətləri və tam zamanında istehsal üsulunun və 6 sigma üsuluna dair məlumatlar öz əksini tapmışdır. Kitabçalar İnstitutun rəsmi internet səhifəsində yerləşdirilmişdir. Tədbirin icrası ilə əlaqədar, İnstitut tərəfindən aidiyyatı müəssisələrdə qənaətli istehsal

üsullarının tətbiqi, eləcə də, məlumatlılığın öyrənilməsinə dair sorğu anketi hazırlanmışdır. Tərtib olunmuş sorğu anketində: müəssisələrin istehsal etdiyi məhsul və xidmətlərin siyahısı, müəssisədə işləyənlərin sayı, natura və dəyər ifadəsi ilə illik satış həcmi, müəssisədə tətbiq olunan idarəetmə və istehsal standartları, istehsal texnologiyaları, qənaətli istehsal üsulları haqqında müəssisələrin məlumatlı olub olmaması, tətbiq olunan qənaətli istehsal üsulları, müəssisə tərəfindən işçilərin ixtisasartırmasının keçirilib keçirilməməsi kimi məsələlər öz əksini tapmışdır. Qənaətli istehsal üsullarının tətbiqi, eləcə də, məlumatlılığın öyrənilməsinə dair sorğu anketi Azərbaycan Respublikasında fəaliyyət göstərən 53 ağır sənaye və maşınqayırma müəssisəsinə göndərilmişdir. Sorğunun nəticələri təhlil edilmiş, müvafiq arayış hazırlanmışdır.

- **"Regionların inkişafı: iqtisadi rayonların pasportları"** 2011-ci ildən başlayaraq, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun elmi-tədqiqat iş planında daxil edilməklə, illik məlumatların əsasında 9 iqtisadi rayon üzrə pasportlar hazırlanır. Pasportların hazırlanması işində həm inkişaf etmiş ölkələrin, həm də inkişaf etməkdə olan ölkələrin təcrübələri öyrənilmiş, təhlil edilmiş, Azərbaycan şəraiti üçün məqbul hesab olunan struktur müəyyən olunmuşdur. Müəyyən olunmuş struktura uyğun 2019-cu il üzrə məlumatlar toplanılmış və emal olunaraq sistemləşdirilmişdir.

## Koronavirus pandemiyasının iqtisadi təsirlərinin qiymətləndirilməsi istiqamətində görülmüş işlər

- **"Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına ehtimal oluna biləcək təsirlərinin iqtisadi qiymətləndirilməsi"** tapşırığı İqtisadiyyat Nazirinin 02 mart 2020-ci il tarixli F-15 nömrəli əmri ilə təsdiq edilmiş "Koronavirus xəstəliyinin Azərbaycan Respublikasına ehtimal olunan təsirləri ilə bağlı İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri üzrə Tədbirlər Planı"nın 3.1 bəndinin icrasını təmin etmək məqsədilə aparılmışdır. İşdə dünyada baş vermiş pandemiyaların qısa xronologiyası verilmiş, koronavirus pandemiyasının iqtisadiyyata təsir mexanizmi araşdırılmışdır. Beynəlxalq təşkilatların COVİD-19 pandemiyasının yaratdığı neqativ təsirlərlə bağlı gözləntiləri, eləcə də Dövlət Statistika Komitəsinin cari ilin yanvar-aprel ayları üçün açıqlanan sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili aparılmış, eyni zamanda Sahələrarası balans modeli əsasında simulyasiyalar edilərək pandemiyanın iqtisadi fəaliyyət sahələrinə təsirlərinə baxılmışdır. Koronovirus pandemiyasının təsirlərinə məruz qala

biləcək ən çox etimal olunan sahələr olaraq 20 sahə seçilmiş və qiymətləndirmələr aparılmışdır. Koronavirus təhlükəsinə məruz qalan ən çox ehtimal olunan sahələr üzrə yerli və idxal məhsullarının strukturu verilmişdir. Hər bir sahə üçün idxalın minimum 10% və maksimum 50% azalması ssenarisi üzrə sahələrdə ümumi buraxılışın təsirə məruz qalaraq azalmasının tam iqtisadi təsirlərinə də baxılmışdır. Nəticə olaraq müəyyən edilmişdir ki, məhsul, iş və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balans modeli əsasında hazırlanmış leontyevin tam xərclər əmsalları əsasında aparılmış simulyasiyalar göstərir ki, il ərzində koronavirus təhlükəsinə ən çox məruz qalan sahələrdə idxalın 10% və müvafiq olaraq 50% azalması ölkə iqtisadiyyatında ümumi buraxılışı 1091210 min manat və 5456051 min manat, son məhsulu (ÜDM) isə 571868 min manat və 2859341 min manat azalda bilər.

- **"Koronavirus (covid-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirlərinin təhlili"** Məlum olduğu kimi 2019-cu ilin sonlarından başlayan və hazırki dövrdə də bütün dünyanı təhlükə altına salan yeni növ koronavirus xəstəliyi insanların ölümü ilə yanaşı ciddi qlobal problemə çevrilmişdir. Ölkələrdə karantin rejiminin tətbiqi, ticarət əlaqələrinin dayanması, istehsalın aşağı düşməsi və s. kimi istiqamətlər üzrə dünya iqtisadi sistemi ciddi ziyan görməkdədir. İşdə koronavirus infeksiyasının qlobal iqtisadiyyata, o cümlədən Azərbaycan iqtisadiyyatına ehtimal olunan təsirləri araşdırılmışdır. Ölkə iqtisadiyyatının pandemiyadan əvvəl və pandemiya dövründə makroiqtisadi göstəriciləri təhlil edilmiş, həmçinin müxtəlif beyəlxalq təşkilatların dünya və Azərbaycan iqtisadiyyatı üçün gözlənilən proqnozları əksini tapmışdır. Müəyyən edilmiş ssenari əsasında yeni növ koronavirus xəstəliyinin Azərbaycan iqtisadiyyatına, xüsusilə də Ümumi Daxili Məhsula (ÜDM) təsirləri həm iqtisadi fəaliyyət növləri üzrə, həm də bütövlükdə iqtisadiyyat üzrə qiymətləndirilmişdir. Eyni zamanda, COVİD-19 pandemiyasından ən çox zərər çəkən turizm sektoru üzrə ssenari qiymətləndirilməsi aparılmışdır.

- **"Koronavirusun yoxsulluğun səviyyəsinə təsiri"** tapşırığının icrası ilə bağlı yerinə yetirilmiş işdə pandemiyanın ölkədə əhalinin yoxsulluq səviyyəsinə və əhalinin gəlirlərinə təsiri öyrənilmiş, təsirlərin aradan qaldırılması üçün görülmüş tədbirlər təhlil edilmişdir. Təhlil nəticəsində əhalinin gəlirlərinin alıcılıq qabiliyətinin sabit qaldığı müəyyən edilmiş və məlum olmuşdur ki, həm pandemiya dövründə ödənilən kompensasiyalar, həm əhalinin orta aylıq əmək haqqında baş vermiş artım nəticəsində

ölkəmizdə koronovirus pandemiyası əhalinin yoxsulluq səviyəsinin ciddi sürətdə artmasına səbəb olmamışdır.

- **“İş yerlərini koronavirusdan necə qoruduq?”** icmal xarakterli araşdırmada ölkədə aparılmış dəstək tədbirləri ilk növbədə dövlət və özəl sektorda ümumi məşğul olanların, o cümlədən muzdla çalışan 1 milyon 650 minədək işçinin iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunmasına imkan vermişdir. Belə ki, 2020-ci ilin fevral və aprel ayları üzrə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla işləyən işçilərin sayı müqayisə edilmiş və müəyyən edilmişdir ki, pandemiya ilə mübarizə tədbirlərinin tətbiqi ilə bağlı olan dövrlərdə ölkəmizdə nəinki muzdlu işçilərin sayında azalma olmuş, əksinə dövlətin sahibkarlıq subyektlərinə etdiyi bir sıra güzəşt və dəstək tədbirləri sayəsində qeyri-dövlət sektorunda muzdlu işçilərin sayında artım da baş vermişdir. Xüsusi ilə qeyd edə bilərik ki, bu güzəştlər və əlavə stimullaşdırma paketləri, bir sıra vergi güzəştləri, vergi prosedurlarının sadələşdirilməsi, pandemiya dövründə sahibkarların dəstəklənməsi, eləcə də bu günlərdə daha bir sosial-iqtisadi dəstək kimi, məcburi dövlət sosial sığorta haqqı dərəcələrinin endirilməsi və s. kimi tədbirlər məşğulluğun qorunması ilə yanaşı, xüsusən də əmək müqavilələrində artım tempinin də davam etməsini də şərtləndirdi. Eyni zamanda bu artımın böyük əksəriyyətinin özəl sektora aid olması pozitiv sosial-iqtisadi məqamlardan biri oldu.

- **Vergi güzəştləri və tətilləri büdcəyə necəyə başa gəlir? Koronavirusun təsirlərinin minimallaşdırılması üçün dövlət sahibkara büdcə hesabına necə dəstək göstərir?** icmal xarakterli araşdırma işində pandemiya dövründə digər ölkələrdə olduğu kimi Azərbaycanda da mənfi təsirləri azaltmaq və vergi siyasəti vasitəsilə stimullaşdırıcı tədbirlər həyata keçirmək məqsədilə müvəqqəti vergi rejimi tətbiqi müsbət nəticə vermişdir. Burada əsas məqsəd sahibkarlıq subyektlərinə dəstəyin verilməsi və eyni zamanda, dövlət büdcəsinin qorunması olmuşdur. Araşdırmada 2020-ci ilin yanvar-mart ayları üzrə dövlət büdcəsinin gəlirlərinin əvvəlki illə müqayisəsi verilmiş, gəlirlərin əvvəlki ilin eyni dövrlə müqayisədə artdığı müəyyən edilmişdir. Ümumilikdə, ölkədə cari ilin sonunadək davam edəcək vergi güzəştləri və tətilləri isə işgüzar fəallığın artırılmasına və inkişafına yardım edəcəkdir. Nəticədə, bu vergi tətilləri biznesə əlavə gəlir gətirməyə kömək edəcək, büdcəyə əlavə gəlir gətirəcək və xərclər artıqlaması ilə ödəniləcək.

**İş Planından əlavə olaraq xüsusi tapşırıqlar əsasında yerinə yetirilmiş işlər**

- **"Real sektorun monitorinqi məqsədilə konyuktur sorğuların hazırlanması və icra edilməsi"** tapşırığı İqtisadiyyat Nazirliyində iqtisadi və sosial proqnozların işlənib hazırlanmasının təkmilləşdirilməsi barədə İqtisadiyyat nazirinin 10 mart 2020-ci il tarixli F-21 nömrəli Əmri ilə "İqtisadi və sosial proqnozların hazırlanması işlərinin təkmilləşdirilməsinə və optimallığının daha da artırılmasına dair Tədbirlər Planı"nın 15-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır. İqtisadiyyatın real sektorunda gedən proseslərin izlənilməsi və monitorinqlərin aparılması məqsədilə statistik məlumatlara əlavə olaraq biznesin vəziyyətinin və onun inkişafının əsas tendensiyasının keyfiyyət qiymətləndirilməsi, iş fəaliyyətini məhdudlaşdıran amillərin və s. qiymətləndirilməsinə istiqamətlənməklə, iqtisadiyyatın müxtəlif sahələri üzrə işgüzar mühitin vəziyyəti və dinamikası haqqında informasiyanın təhlil edilməsi üçün investisiya bloku üzrə sorğu formaları hazırlanmış və konyuktur sorğular keçirilmişdir. Sorğuya müxtəlif iqtisadi fəaliyyət sahələri ilə məşğul olan sahibkarlıq subyektləri arasında aparılmışdır. Sorğular sahibkarlıq subyeklərinin 2020-ci ilin 1-ci, 2-ci və 3-cü rüblərindəki fəaliyyətlərini və növbəti rübdə gözləntilərinin nə olacağına istiqamətlənmişdir. Daha dəqiq desək, rəsmi açıqlanan statistik məlumatlara əlavə olaraq aparılmış sorğu biznesin vəziyyətinin və onun inkişafının əsas tendensiyalarının keyfiyyət qiymətləndirilməsi, iş fəaliyyətini məhdudlaşdıran amillərin və s. qiymətləndirilməsinə istiqamətlənmişdir. Cari ilin hər 3 rübündə aparılmış sorğu nəticələrinin təhlili əsasında ***"Real sektorun monitorinqinin təhlilinin nəticələrinə dair Arayış (2020-ci ilin I rübü üzrə)", "Real sektorun monitorinqinin təhlilinin nəticələrinə dair Arayış (2020-ci ilin I və II rübü üzrə)"*** *və* ***"Real sektorun monitorinqinin təhlilinin nəticələrinə dair Arayış (2020-ci ilin III rübü üzrə)"*** hesabatlar hazırlanmışdır. İqtisadi subyektlərin sorğularda iştirak səviyyəsinin artırılması, sorğuların daha geniş iqtisadi subyekt kütləsinə çatdırılması və davamlılığını təmin etmək məqsədilə 2020-ci ilin IV rübü üzrə sorğuların keçirilməsi yenidən işlənilmiş onlayn platforma üzərindən aparılmaqdadır.
- **"Dövlət investisiyalarının makroiqtisadi təsirlərinin qiymətləndirilməsi" tapşırığı** İqtisadiyyat nazirinin 25 fevral 2020-ci il tarixli F-8 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planının 2.2-ci bəndinin icrası istiqamətində həyata keçirilmişdir. İşdə dövlət investisiya qoyuluşlarının makroiqtisadi təsirlərinin qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Bu məqsədlə, dövlət investisiya qoyuluşlarının iqtisadi sahələr üzrə

təsirlərini qiymətləndirməyə imkan verən sahələrarası balans modeli və onun müxtəlif modifikasiya modellərindən istifadə olunmuşdur. Qeyd olunan modellər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (DSK) rəsmi olaraq təqdim etdiyi 2016-cı ilin ehtiyat istifadə cədvəlləri ilə hazırlanmış məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balans cədvəlləri əsasında empirik olaraq işlənmişdir. Dövlət investisiya qoyuluşlarının 2016-2020-ci illəri əhatə edən illik məlumatları ekzogen olaraq daxil edilmişdir. Bu məlumatlar ilk öncə emal edilərək iqtisadi fəaliyyət növləri qruplaşdırılmışdır. Qiymətləndirmələr iki ssenari (1) 2016-2019-cu illər və (2) 2020-ci il üzrə ayrılıqda yerinə yetirilmişdir. Nəticədə hər bir iqtisadi fəaliyyət sahəsi və ümumilikdə iqtisadiyyat üzrə ümumi buraxılışların və yeni yaranan iş yerlərinin sayı müəyyən edilmişdir.

- **Dövlət Vergi Xidmətinin məlumatları əsasında Ümumi Daxili Məhsulun gəlirlər üsulu ilə hesablanması** tapşırığına əsasən ÜDM-in gəlirlər üsulu ilə hesablanması zamanı toplanmalı olan məlumatların qısa xarakteristikası verilmiş, ümumi əlavə dəyərin tərkibi müəyyən edilmişdir. Dəyər üsulu ilə əlavə dəyərin və ümumi daxili məhsulun hesablanması formulu hazırlanmışdır. Tapşırığın yerinə yetirilməsi üçün lazım olan məlumat bazası vergi ödəyicilərinin avtomatlaşdırılmış bazasından toplanacaqdır. Əsas məlumat mənbəyi müxtəlif vergi bəyannamələri üzrə təqdim edilmiş məlumatlardan ibarətdir. Toplanmış məlumatlar gəlirlər üsulu ilə toplanaraq işdə qeyd edilən formatdakı alqoritmlə ÜDM hesablanacaqdır. Məlumatlar 2010-2019-cu illəri əhatə edəcəkdir. Sonda 2010-2019-cu illərin məlumatları əsasında zaman sıraları təhlil ediləcək, artım templəri rəsmi statistikadakı artım templəri ilə müqayisə ediləcək, dəyər ifadəsində həm ümumi, həm də tərkib elementləri üzrə ÜDM müqayisə ediləcək və proqnoz üçün trendlər hesablanacaqdır.
- **Azərbaycan iqtisadiyyatında istehsal faktorlarının məhsuldarlığı** tapşırığına əsasən əmək dəyər nəzəriyyəsi və marjinalist nəzəriyyələri baxımından qiymətləndirmə metodologiyaları nəzərdən keçirilmişdir. İşdə Ümumi buraxılışın və ÜDM-in istehsal faktorlarından asılılığı istehsal funksiyaları empirik qiymətləndirilmişdir. İstehsal faktorları kimi iqtisadiyyatda məşğul əhalinin sayı və əsas istehsal fondlarının dəyəri əsas götürülmüşdür. Hazırlanmış məlumat bazası əsasında faktorların məhsuldarlığı Kobb-Duqlas istehsal funksiyasından istifadə etməklə qiymətləndirilmiş və Eviews 7 proqram paketinin vasitəsilə müvafiq model qurulmuşdur.
- **“Məlumat pasportlarının hazırlanması”** tapşığının icrası istiqamətində dağ-mədən sektoru, tikinti sektoru və neft-kimya məhsullarının istehsalı ilə bağlı məlumat

pasportları hazırlanmışdır. Hər bir pasportda müvafiq sahələr üzrə ümumi məlumatlar (2017-2020-ci illər üzrə əsas statistik göstəricilər), sahənin inkişafı ilə bağlı qəbul edilmiş qanunvericilik sənədləri (strategiya, dövlət proqramları və s.), müvafiq sektorda müşahidə edilən əsas çətinliklər və problemlər, sahənin inkişafı ilə əlaqədar həyata keçirilmiş dövlət dəstəyi tədbirləri və görülmüş işlər əks etdirilmişdir.

- **“Su ehtiyatları və onların idarə edilməsi sahəsində beynəlxalq təcrübə”** Tədqiqat işində suvarma zamanı su itkilərinin azaldılmasında beynəlxalq təcrübə araşdırılmışdır. Bununla bağlı İsrail və Türkiyə təcrübəsi öyrənilmişdir. Su resurslarının çatışmazlığı səbəbindən suvarmanın səmərəliliyinin və suvarma üsullarının effektivliyinin artırılması və sistemin qabaqcıl idarəetmə üsullarından istifadə edilməsi hesabına sudan istifadənin azaldılması üçün müxtəlif texnologiyaları təhlil edilmiş və ölkəmiz üçün bu metodların tətbiqi araşdırılmışdır.
- **Gürcüstan Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən qısa arayış** hazırlanaraq Nazirliyin struktur bölmələrinə və tabeliyindəki qurumlara məlumat və xidməti istifadə üçün göndərilmişdir.
- **Ermənistanda yoxsulluq problemi üzrə qısa arayış** hazırlanmış və Nazirliyin struktur bölmələrinə və tabeliyindəki qurumlara məlumat və xidməti istifadə üçün göndərilmişdir. Arayışda yoxsulluğun müəyyənləşdirilməsi üzrə əsas konsepsiyalar təhlil edilmiş və Ermənistanda yoxsulluq səviyyəsi qiymətləndirilmişdir.
- **Pakistan və Rusiya Federasiyasının bir çox makroiqtisadi göstəricilərinin toplanması və vizuallaşdırılması** tapşırığı iqtisadi əməkdaşlıq məsələlərinin nəzərdən keçirilməsi məqsədilə həyata keçirilmiş və aidiyyəti üzrə Nazirliyin Dövlətlərarası iqtisadi əməkdaşlıq şöbəsinə təqdim edilmişdir.

**Mətbuatda çıxış üçün 5 mövzu üzrə icmal hazırlanması**

- **“Banklara ucuz kreditləşməyə getmək sərfəlidirmi? (SİF-in vəsaitlərindən istifadə qaydalarına dəyişikliklər fonunda)”** icmal xarakterli araşdırmada bank kreditlərinin faiz dərəcəsinə təsir edən amillər, ölkəmizdə faiz dərəcəsinin yüksək olmasının səbəbləri, Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərindən istifadə etməklə binesə verilən kreditlər üzrə müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsinin 4 faizdən aşağı müəyyən edilməsi həmin kredit təşkilatları üçün səmərəli olub-olmamasının müəyyən edilməsi istiqamətində tədqiq edilmişdir. Belə ki, kredit faiz dərəcəsinə təsir göstərən amillər kimi - cəlb edilən depozitlərin faiz

dərəcələri və bankın cəlb etdiyi vəsaitlərdə depozitlərin çəkisi, mərkəzi bankların uçot faiz dərəcəsi, banklararası kreditlər və ölkədənkənar cəlb edilən vəsaitlər, qiymətli kağızlar və törəmə maliyyə alətlərində (derivativlər) kredit təşkilatlarının iştirakı, bankların əməliyyat xərcləri və fintexdən istifadə göstəricisi, problemli kreditlərin kredit portfelində çəkisi qruplaşdırılmışdır. Həmçinin, araşdırmada ölkədə kredit faiz dərəcəsinin yüksək olmasına birbaşa təsir edən amillər də öz əksini tapmışdır.

- **"Sahibkarlığa dəstək mexanizmlərinin iqtisadi fəallığın artmasında rolu"** icmal xarakterli araşdırmada pandemiya dönəmində dövlətin iqtisadi aktivliyin qorunması istiqamətində həyata keçirdiyi sahibkarlığa dəstək mexanizmləri təhlil edilmiş, cari ilin ilk 4 ayında bir sıra iqtisadi sahələr üzrə inkişaf göstəricilərinə baxılmış, pandemiyadan ən çox ziyan çəkən sahələr kimi turizm, nəqliyyat, ictimai iaşə xidmətləri nəzərdən keçirilmişdir. Bütün bunlara baxmayaraq, dövlət tərəfindən pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrində çalışan muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi, fərdi (mikro) sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi və s. proqramlar ölkədə biznes fəallığının və əhalinin maddi rifahının qorunmasına yönəlmişdirsə, cari ilin sonunadək davam edəcək vergi güzəştləri və tətilləri isə işgüzar fəallığın artırılmasına və inkişafına yardım edəcəkdir.
- **"Sosial-iqtisadi göstəricilərin təhlili, qiymətləndirmə və proqnozlaşdırma modellərinin təsnifatı"** İqtisadiyyat nazirinin müavini Sevinc xanım Həsənovanın tapşırığı əsasında sosial-iqtisadi göstəricilərin təhlili, qiymətləndirmə və proqnozlaşdırma modellərinin təsnifatlaşdırılması yerinə yetirilmişdir. Belə ki, bu istiqamətdə modellər təsnifləşdirilmiş, dünya praktikasında istifadə olunan əsas modellər verilmiş, Azərbaycanda istifadə olunan modellər şərh edilmiş və İnstitutda yerinə yetirilmiş və istifadə olunan modellər sadalanmışdır.
- **"İxracın təşviqi üzrə güzəştlərin tətbiq metodologiyası"** Hazırda yerli məhsulların dünya bazarında rəqabətqabiliyyətliliyini qorumaq məqsədilə bir sıra dövlət güzəştləri tətbiq edilməkdədir. Güzəştlərin tətbiqi zamanı qarşıya çıxan çətinliklərdən biri dövlət dəstəyinə olan ehtiyacın kəmiyyətcə qiymətləndirilməsidir. Hər hansı məhsulun ixracı ilə bağlı dövlət dəstəyinə olan ehtiyac məhsulun istehsalı ilə əlaqədar investiyaya olan tələb və yaxud həmin məhsulun istehsalına çəkilən xərcləri əhatə edə bilər. Ümumiyyətlə hər bir investisiya layihəsi müəyyən meyarlara cavab verdiyi halda reallaşır. Bu məqsədlə də, İnstitut tərəfindən tədqiqat işi yerinə yetirilərək ixracın təşviqi

üzrə güzəştlərin tətbiqi araşdırılaraq metodoloji yanaşma verilmişdir. İlk öncə mövcud dəstək paketləri sistemləşdirilərək təhlil edilmiş, daha sonra tətbiq edilən dəstək paketlərinin iqtisadi fəaliyyət sahələrinə təsir istiqamətləri üzrə qruplaşdırılması həyata keçirilmiş və sonda ümumiləşdirilmiş təkliflər verilmişdir.

- **"Vergi azadolmalarının və güzəştlərinin ləğv edilməsinin, habelə cari maliyyə dəstəklərinin təkmilləşdirilməsinin bütövlükdə iqtisadiyyata və sahibkarlığın inkişafına təsirinin araşdırılması"** İqtisadiyyat nazirinin müavini cənab Şirzad Abdullayevin Azərbaycan Respublikasının İqtisadiyyat naziri cənab Mikayıl Cabbarova unvanladığı "Müvafiq araşdırmaların aparılması haqqında" xidməti məruzənizdə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutuna 2020-ci ilin 3 fevral tarixinə qədər vergi azadolmalarının və güzəştlərinin ləğv edilməsinin, habelə cari maliyyə dəstəklərinin təkmilləşdirilməsinin bütövlükdə iqtisadiyyata və sahibkarlığın inkişafına təsirinin araşdırılması barədə göstəriş verilmişdir. Bu məqsədlə də, təhlilin elmi-metodoloji əsaslatrı verilmiş, qısa müddətli dövr üçün kənd təsərrüfatının inkişafında müşahidə edilən əsas problemlər ümumiləşdirilmiş, uzun müddətli dövr üçün kənd təsərrüfatının inkişafına xas olan xüsusiyyətlər ortaya qoyulmuş və tədqiqat problemi üzrə ölkənin spesifik xüsusiyyətləri təhlil edilmişdir. Qiymətləndirmə zamanı ekonometrik metodlardan istifadə edilmişdir. Bu məqsədlə rəsmi statistika məlumatları əsasında qurulacaq modellər üçün 2001-2012-ci illərin zaman sıraları işlənib hazırlanmışdır. Iqtisadi nəzəriyyəyə müvafiq olaraq qısa və uzun müddətli problemlərin mövcudluğunu qiymətləndirmək üçün səbəb nəticə əlaqələri seçilmiş və qurulacaq modellərin reqressiya tənlikləri nəzəri olaraq formalaşdırılmışdır.

**Strateji yol xəritələri üzrə İnstitutun əsas icraçı olduğu 15 tədbir üzrə işlər aparılır**

Əvvəlki illərdə hazırlanıb təqdim edilmiş normativ-hüquqi sənədlərin təkmilləşdirilməsi, razılaşdırılması işləri aparılır, bəzi tədbirlər üzrə işlər davam etdirilir və s.

**5. Vətəndaş müraciətləri üzrə**

2020-ci il ərzində İnstituta birbaşa 24 müraciət daxil olmuşdur. Onlardan 21 müraciət müsbət həll olunmuş, 3 müraciətə müvafiq izahat verilmişdir.

Vətəndaş müraciətlərində olan təklif və texnoloji həllər rəylərə göndərilir, əsasən **Nazirliyin İnnovasiyaların Təşviqi Qrupunun fəaliyyəti çərçivəsində müzakirə edilirlər.**

## 6. Kadr hazırlığı

### Doktorantura

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda iqtisad elmlərinə aid ixtisaslar üzrə doktorantura və dissertanturaya 2019-2020-ci tədris ili üçün qəbul həyata keçirilmişdir: fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya 5 nəfər, dissertanturaya 2 nəfər, elmlər doktoru hazırlığı üzrə dissertanturaya 2 nəfər qəbul edilmişdir. 2020-2021-ci tədris ili üçün iqtisad elmlərinə aid ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edilmişdir.

### Kursların təşkil olunması

› İqtisadiyyat Nazirliyinin Makroiqtisadi proqnozlaşdırma və təhlil şöbəsi əməkdaşları üçün zaman sıralarının təhlili, ekonometrik qiymətləndirmə üsullarının təhlili və “Eviews” statistik proqram paketindən istifadə edilməsi və s. istiqamətdə təlim keçirilmişdir. Sonrakı mərhələdə təlimlər onlayn formada aparılmışdır. Sadə və çoxlu reqressiya modelləri, Ən Kiçik Kvadratlar üsulu, əmsalların, determinasiya əmsalının, P-ədədlərinin şərhi, vahid kök testi, keyfiyyət göstəriciləri, multikollinearlıq, avtokorellyasiya, heteroskedastiklik, kointeqrasiya testləri, səbəbiyyət testi və s. mövzular üzrə nəzəri biliklər izah edilmiş, eyni zamanda praktiki olaraq göstərilmişdir.

› Dövlət investisiyalarının təsirlərinin qiymətləndirilməsi üzrə işçi qaydada İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin əməkdaşlarına təlim keçirilmişdir.

## 7. Elmi nəşrlər və ictimai məlumatlandırma

### Elmi nəşrlər

İnstitutun əməkdaşlarının bilavasitə iştirakı ilə sahəvi məslələr üzrə kitab, metodologiya, istifadəçi təlimatı hazırlanaraq, geniş oxucu kütləsinə təqdim edilmişdir. Bu nəşrlər içərisində qeyri-neft sektorunun inkişafına yardım göstərilməsi, ixracın artırılması, sahibkarlığın maarifləndirilməsi və gücləndirilməsi kimi istiqamətlər prioritetlik təşkil etmişdir.

*“Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” Elmi Əsərlər Toplusu* Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin

dərc olunması tövsiyyə edilən dövri elmi nəşrlərin siyahısı”nın iqtisad elmləri bölməsinə daxil edilmişdir. Bu ildən etibarən topluya əlavə Bülleteni nəşr edilir.

“İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda 2019-cu ildə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin referativ toplusu” və “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” Elmi Əsərlər Toplusunun xüsusi buraxılışı (COVİD-19) hazırlanmış və məlumat və xidməti istifadə üçün Nazirliyin müvafiq şöbələrinə təqdim edilmişdir. Həmçinin, “Pilot peşə təhsili müəssisələrində məhsul və xidmət istehsalı və satışı üzrə fəaliyyətin qiymətləndirilməsi metodologiyası” adlı kitabça və “Azərbaycanın əsas su anbarları və su kanalları” adlı kataloq hazırlanmışdır. A.D.Hüseynovanın “Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə” adlı kitabı nəşr olunmuşdur. Kitabda elm və innovasiya fəaliyyətinin ölçülmə və qiymətləndirilməsinin metodologiya və üsulları, milli innovasiya sistemi və elmşünaslıq, elmmetriya, bibliometriya, elmi istinadlar və ölçmə indeksləri haqqında geniş məlumat verilib, elmi istinad bazaları, onlardan istifadə qaydaları və iş prinsipləri üzrə arayışlar təqdim edilmişdir. Elm və innovasiya fəaliyyətinin qiymətləndirilməsi üzrə monitorinq sisteminin konsepsiyası təklif edilmişdir.

**Kitabxana** yeni elmi ədəbiyyatlarla zənginləşdirilir, elmi ədəbiyyatların kataloqları və xülasələri hazırlanmışdır;

## 8. Hesabat dövründə elmi əməkdaşlıq

› 13 may 2020-ci il tarixində *"COVİD-19: qlobal dəyişmələr və təsirlərin qiymətləndirilməsi"* mövzusunda vorkşop keçirilmişdir. Azərbaycan və Türkiyə tərəfindən alim və professorlar, millət vəkilləri, müəllimlər, iqtisadçılar, media nümayəndələri və dinləyicilər iştirak etmişdir. Vorkşop zamanı birgə yerinə yetirilmiş tədqiqatın nəticələri müzakirə edilmişdir.

› 22 may 2020-ci il tarixində “Schneider Electric” Şirkətində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İSRER), Azərbaycan Texniki Universiteti (AzTU) iştirakı ilə görüş keçirilmişdir. Görüşdə beynəlxalq səviyyədə qəbul edilmiş texniki standartların ölkəmizdə tətbiqi, universitetlərdə təcrübə yönümlü tədqiqat və layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilmişdir. Nəticədə dövlətin inkişaf strategiyasına uyğun 7-8 sahənin prioritet olaraq seçilməsi, hər bir sahə üzrə nəticəyə çatmaq üçün fəaliyyət planının təyin edilməsi qərara alınmışdır. Qeyd edilən məsələlərin həllində İnstitut aparıcı və təşkilatçı olaraq iştirak edəcəkdir.

› 10 iyul 2020-ci il tarixində Sankt-Peterburq Mühəndislik Akademiyası "İnnoprom" İnnovativ İnkişaf və Sertifikatlaşdırma Mərkəzi” qeyri-kommersiya təşkilatı ilə

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İSRER) arasında online görüşlər keçirilir. Online görüşlərdə Rusiya Federasiyası və MDB ölkələrində ən yaxşı texnoloji həllərin təbliği, texnoloji həllərin ekspert qiymətləndirilməsinin aparılması, birgə layihələrin həyata keçirilməsi məsələləri öz əksini tapmışdır.

› 07 oktyabr 2020-ci il tarixində AMEA Neft-Kimya Prosesləri İnstitutu, Niderland Krallığının "Eninco Engineering B.V." Şirkəti, "AMEA Yüksək Texnologiyalar Parkı" MMC və "Dəmir Texnika Mərkəzi" MMC arasında laborator, texniki-texnoloji avadanlıq bazasında təcrübi-eksperimental istehsalın həyata keçirilməsində birgə əməkdaşlıq məqsədilə anlaşma memorandumu imzalanmışdır.

## 9. Əsas hədəflər

› İqtisadi qərarların qəbulunun elmi əsaslarının işlənməsi üçün tədqiqatların aparılması, modellər, analitik alət və üsullar, metodoloji vəsaitlər, məlumat bazaları və digər analitik vasitələrin hazırlanması;

› Dövlətin iqtisadi siyasətinin elmi əsaslarının, o cümlədən iqtisadi strategiyaların hazırlanmasında iştirak;

› Təsir analizlərinin aparılması üçün mikro və makro səviyyədə modellərin yaradılması;

› "Təhsil-elm-istehsal" əlaqələrinin optimallaşdırılması;

› Ölkədə milli innovasiya sisteminin qurulmasında iştirak;

› "Dövlət - tədqiqat - modelləşmə, kadr hazırlığı – sahibkarlıq" vəhdəti əsasında qlobal çağırışlara uyğun tədqiqatların aparılması;

› Keyfiyyətli və yüksək ixtisaslı kadrların hazırlanması.